**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# DEMOQRAFİK AMİLLƏRİN NEQATİV TƏSİRİNƏ MƏRUZ QALMIŞ YENİYETMƏLƏRİN SOSİALLAŞMASININ PSİXOLOJİ XÜSUSIYYƏTLƏRİ

**İxtisas:** 6107.01 – Ümumi psixologiya

**Elm sahəsi:** Psixologiya

**İddiaçı:** **Arzu Kamal qızı Bağırzadə**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2024**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Hikmət Əbdül oğlu Əlizadə**
Pedaqogika elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **Gülnarə Kazım qızı Qurbanova**
Psixologiya elmləri doktoru, professor

**Qəribə Vahid qızı Rəhimova**
Psixologya üzrə fəlsəfə doktoru, dosent

**Şəfəq İsmayıl qızı Şahməmmədova**
Psixologiya üzrə fəlsəfə doktoru

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının bazasında yaradılmış BFD 2.43 Birdəfəlik dissertasiya şurası.

Dissertasiya şurasının sədri: Psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

Dissertasiya şurasının elmi katibi: Psixologiya üzrə fəlsəfə doktoru,dosent
**Müşviq Hüseyn oğlu Mustafayev**

Elmi seminarın sədri: Psixologiya elmləri doktoru, professor
**Elnarə İbrahim qızı Şəfiyeva**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Sosiallaşma insan fərdinin təbii-genetik imkanları ilə bağlı olub, onun yaşadığı ictimai mühitin mədəni normaları ilə tənzimlənir, fərdin ünsiyyət və fəaliyyət prosesində fəal şəkildə mənimsədiyi ictimai dəyərlər, mənəvi-əxlaqi keyfiyyətlər, davranış və nitq mədəniyyəti, adət və vərdişlərin kompleksi kimi başa düşülür. Bu prosesdə insan fərddən şəxsiyyətə çevrilir.

İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi müasir dövrdə gənc nəslin sosiallaşmasında təhsilin rolu artmışdır. Təhsilsiz insan özünü cəmiyyətin normal üzvü kimi təsdiq etməkdə çətinlik çəkir. Lakin ailədə baş verən demoqrafik proseslər bir sıra hallarda şagirdin sosiallaşmasını ləngidən, təlim fəaliyyətinə mənfi təsir göstərən amilə çevrilir. Buna görə də, müasir dövrdə demoqrafik amillərin neqativ təsirlərini aradan qaldırmaq, şagirdlərin (o cümlədən yeniyetmələrin) sosiallaşmasının və təlim fəaliyyətinin yaxşılaşdırılması yollarını axtarmaq təhsil sisteminin prioritet vəzifələrindən birinə çevrilir. Lakin bu sahədə müəyyən çətinliklər mövcuddur, bu problemləri öyrənmək və onların optimal həlli yolları tədqiq edilməlidir. Tədqiqatın aktuallığını şərtləndirən başlıca amil budur. Deyilənləri nəzərə alaraq tədqiqatımızın mövzusunu "Demoqrafik amillərin neqativ təsirlərinə məruz qalmış yeniyetmələrin sosiallaşmasının psixoloji xüsusıyyətləri" kimi müəyyənləşdirdik.

Elm tarixində şəxsiyyətin sosiallaşması problemi sosial-psixoloji və sosial pedaqoji tədqiqatların başlıca mövzusu olub (C. Dyui, M. Mid, Ç Kuli, E. Qiddens, E. Dürkheym, E. Erikson, E. Fromm, R. Merton, L. Vıqotski, İ. Kon, M. Bojoviç, Ə. Bayramov, Ə. Əlizadə və b.)[1]. Bu problemin öyrənilməsinə son dövrlərdə diqqət daha da artmışdır. Aparılan araşdırmalar nəticəsində insanın sosiallaşması probleminə yeni yanaşmalar formalaşmışdır. Bunlara A.Bandura, C.Rotter, F.Zimbardo, M.Lyayppe, S.Miller, T.D..Marsinovskaya, A.İ.Kravçenko, V.P.Kaznaçeyev, Y.İ.Qilins-

[1] Божович Л.И. Подростковый возраст // Возрастная и педагогическая психология: Хрестоматия. М.: Академия, 2003;

ki, S.S.Zanayev, Azərbaycanda isə H.Ə. Əlizadə, R.İ.Əliyev və b. göstərmək olar[1]. Bu tədqiqatlarda təhsil və tərbiyə (özünütərbiyə) sosiallaşmanın optimal yolu kimi göstərilir. Təhsil sahəsində aparılan tədqiqatlarda təhsil subyektlərinin sosiallaşması, onun sosial-pedaqoji və sosial-psixoloji problemləri, bunun üçün lazım olan pedaqoji şəraitin yaradılması şərtləri əhatəli şəkildə öyrənilir. Xüsusilə, demoqrafik təsirlərlə üzləşmiş, sosial müdafiəyə, mənəvi dəstəyə, diqqət və qayğıya ehtiyacı olan uşaq, yeniyetmə və gənclərin sosiallaşması müasir təhsildə diqqət çəkən məsələ kimi vurğulanır[2].

Ailə institutunun şəxsiyyətin sosiallaşmasında rolu istiqamətində çoxsaylı tədqiqatlar aparılmışdır. Ə.Ə.Əlizadə, A.N.Abbasov bu sahədə ailə həyatının etika və psixologiyasını öyrənmişlər[3]. M.Ə.Həmzəyev ailə tərbiyəsində uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması yollarını göstərmişdir. S.V. Kovalyov öz araşdırmalarında diqqəti müasir ailənin psixologiyasına yönəldir. V.A.Mişenko kütləvi informasiya vasitələrində ailə obrazının formalaşdırılması məsələlərindən bəhs edir. D.V.Stolyarenko müasir ailələrdə yeniyetmələrdə sosiallaşmanın ləngiməsi problemlərini diqqət mərkəzinə gətirir[4]. L.B.Şneyder isə ümumilikdə ailə münasibətlərinin psixoloji xüsusiyyətlərini təhlil edərək onun uşaqların inkişafına təsir imkanlarını aydınlaşdırır. B.S.Ağayeva ailə institutunda münasibətlərin ata və anadan asılılığı fikrini önə çəkir.

Müasir dövrdə R.Merton, V.N. Kuznetsov, B.D.Parıgin (105) problemi ümumi sosiologiya, sosial psixologiya aspektində nəzərdən keçirirlər. V.A.Yadovun izahında sosioloji tədqiqatın

---

[1] Бандура А., Роттер Дж. Социально-когнитивное направление в теории личности // Теории личности. М.:- СПб: Питер, 19976

[2] Ковалева А.И. Концепция социализации молодежи: нормы, отклонения, социализационная траектория // Социологические исследования, 2003, №1, с.34-46.

[3] Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı, Maarif, 1993;

[4] Столяренко Д.В. Отклоняющаяся социализация подростков в условиях трансформации современной российской семьи //дисс…на соис. уч.степ. канд. социол. наук. Ставрополь, 2016, 183 с.

necə aparılması, onun metodologiyası və metodları, həyata keçirilməli olan proqramlar barədə izah verilir.

Problemə həsr olunmuş tədqiqat işlərində ümumən yeniyetmələrin sosiallaşması problemlərinə toxunulsa da, onlarda müasir dövrümüz üçün xüsusi aktuallıq kəsb edən demoqrafik amillərin neqativ təsiri baxımından müstəqil bir problem kimi araşdırılmamışdır. Bu da problemin müasir dövr üçün aktual olduğundan xəbər verir.

**Tədqiqatın obyekti** - yeniyetmələrin sosiallaşmasına demoqrafik amillərin neqativ təsirləridir.

**Tədqiqatın predmeti**- yeniyetmələrin sosiallaşmasına demoqrafik amillərin neqativ təsilərinin psixoloji xüsusiyyətləridir.

**Tədqiqatın məqsəd və vəzifələri** – yeniyetmələrin sosiallaşmasına demoqrafik amillərin neqativ təsirlərinin psixoloji xüsusiyyətlərinin öyrənilməsi və aradan qaldırılması yollarının müəyyənləşdirilməsidir. Tədqiqat işində qarşıya qoyulmuş məqsədə nail olmaq üçün bir sıra konkret vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1) problemin ədəbiyyatda qoyuluşu vəziyyətini öyrənmək;
2) yeniyetməlik dövründə sosiallaşmanın xarakterini müəyyənləşdirmək;
3) problemin tədqiqi metodikasını işləyib hazırlamaq;
4) yeniyetmələrin sosiallaşmasına demoqrafik amillərin təsirini aydınlaşdırmaq;
5) demoqrafik problemli ailədə yeniyetmələrin sosiallaşmasının çətinliklərini ayırd etmək;
6) demoqrafik amillərin yeniyetmələrə neqativ təsirinin aradan qaldırılmasında sosial institutların qarşılıqlı fəaliyyətini araşdırmaq;
7) yeniyetmələrin sosiallaşmasına demoqrafik hadisələrin neqativ təsirini təyin etmək;
8) demoqrafik amillərin neqativ təsirləri ilə üzləşmiş yeniyetmələrin sosiallaşması texnologiyasini işləyib hazırlamaq;
9) həmyaşıdlarla birgə fəaliyyət şəraitində yeniyetmələrin sosiallaşdırılmasına nail olmaq.

**Tədqiqatın əsas fərziyəsi**. Əgər demqorafik amillərin neqativ təsirlərinə məruz qalmış yeniyetmələr özlərinin yaşına, qabiliyyət və maraqlarına uyğun yaradıcı fəallığa yönəldilsələr, bu amillərin onların sosiallaşmasına göstərdiyi neqativ təsirlər zəifləyər:

- emosional-iradı sahədə sabitlik yaranar;
- özünüfəallaşdırma maraqları artar;
- uğur motivasiyası formalaşar;
- yaşıdlar qrupunda əməkdaşlıq imkanları artar.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji əsasını sosial psixologiyanın, sosial pedaqogikanın və sosiologiyanın nəzəri əsasları ilə bağlı yanaşmalar, psixoloji xidmət təcrübəsi sahəsindəki müddəalar, şəxsiyyət və şəxsiyyətlərarası münasibətlərlə bağlı nəzəriyyələr, sosial qruplarda insanların birgə fəaliyyəti prosesi, təzahür xüsusiyyətləri ilə bağlı elmi müddəa və prinsiplər, ailə və güzəran psixologiyası ilə bağlı klassik və müasir mənbələr təşkil edir.

Tədqiqatda aşağıdakı **metodlardan** istifadə olunmuşdur: nəzəri təhlil, müşahidə, müsahibə-söhbətlər, anket-sorğu, fəaliyyət məhsullarının təhlili, testləşdirmə, eksperiment.

**Müdafiəyə çıxarılan müddəalar**:

1. Dünyada, cəmiyyətdə və ailədə baş verən demoqrafik amillər ailədə sosial inkişaf şəraitini dəyişdirməsi yolu ilə yeniyetmələrin sosiallaşmasına təsir edir. Bu təsirin xarakterindən asılı olaraq, yeniyetmənin sosiallaşmasında bir halda pozitiv, digər halda neqativ dəyişikliklər öz əksini tapır.
2. Ailədə baş verən demoqrafik proseslərin yeniyetmələrin sosiallaşmasına təsiri valideynlərdən, onların tərbiyə üslubundan, ailədaxili münasibətlərdən asılı olur.
3. Demoqrafik amillərin yeniyetmələrin sosiallaşmasına neqativ təsiri özünü daha çox onların emosional sahəsində, davranış və münasibətlərində, təlim fəallığının zəifləməsində təzahür etdirir.
4. Əlverişli diaqnostik, korreksiya və konsultasiya texnologiyaları tətbiq etməklə yeniyetmələrin ailədə və məktəbdə sosiallaşmasını ləngidən demoqrafik amillərin neqativ təsilərini

zəiflətmək mümkündür.

**Tədqiqatın elmi yeniliyi.** Yeniyetmələrin sosiallaşmasına demoqrafik amillərin neqativ təsirlərinin xüsusiyyətləri araşdırılır, valideyn və müəllimlərin, uşaq birliyi rəhbərlərinin, məktəb psixoloqlarının bu sahədəki funksiyaları müəyyənləşdirilir, yeniyetmələrin sosiallaşması prosesində onların yeri və rolu müəyyən edilir və prosesdə iştirakı təmin edilir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti.** Demoqrafik amillərin neqativ təsirlərinə məruz qalan yeniyetmələrin sosiallaşmasının psixoloji xüsusiyyətləri açıqlanır, təhsil mühitində sosiallaşmanın səmərəli şərtləri aydınlaşdırılır. Tədqiqatda istifadə edilmiş metodlar və metodikalar məktəblərdə yeniyetmələrin sosiallaşması, o cümlədən yeniyetmənin sosiallaşmasına demoqrafik amillərin neqativ təsirinin aradan qaldırması istiqamətində müəllimlərin, sinif rəhbərlərinin və məktəb psixoloqunun fəaliyyətində tətbiq edilə bilər. Tədqiqatdan əldə edilən nəticələr pedaqoji kollektivlərin fəaliyyətini optimallaşdırmaq üçün əhəmiyyətlidir.

**Aprobasiyası və tətbiqi.** Disserrtasiyanın məzmunu və əsas müddəaları müəllifin Azərbaycan, rus və ingilis dillərində çap olunmuş məqalələrində, bir sıra elmi-nəzəri konfrans və seminarlardakı məruzələrində öz əksini tapmışdır. Aparılan araşdırmalar zamanı müxtəlif beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş sənədlərə, məlum problemlə əlaqədar hazırlanmış xüsusi hesabatlara, araşdırmalar və ekspert təhlillərinə, Azərbaycan Respublikasının qanunvericilik akt-larına və digər zəruri materiallara müraciət olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Gəncə Dövlət Universitetinin Psixologiya kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.**

Dissertasiyanın girişi –8 s.; I fəsli - 34 s.: II fəsli - 31 s.; III fəsil – 39 səhifədən; dissertasiya ümumilikdə 266359 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **girişində** mövzunun aktuallığı, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi və vəzifələri, obyekti, predmeti əsaslandırılmış, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işinin "**Psixologiyada şəxsiyyətin sosiallaşmasına demoqrafik amillərin təsirinin öyrənilməsi probleminin nəzəri məsələləri**" adlı birinci fəslində ilk olaraq **problemin ədəbiyyatda qoyuluşu** nəzərdən keçirilir.

Yeniyetmələrin sosiallaşması probleminin öyrənilməsi yetişməkdə olan gənc nəslin dinamik psixoloji inkişafını, onlarda şəxsiyyətin formalaşmasını, mənəvi baxımdan sağlamlığının qorunmasını təmin etmək üçün aparılan işlərin tərkib hissəsidir. Psixologiyada bu istiqamətdə sistemli tədqiqatlar aparılır.

Amerika tədqiqatçısı M. Midin "Uşaqlığın mədəni dünyası" əsərində arxaik mədəniyyətlərdə sosiallaşmanın xüsusiyyətlərini göstərir. Ç.Kuli isə şəxsiyyətin qrupda sosiallaşması problemini araşdırdı. Onun konsepsiyasında fərdin sosiallaşmasında həlledici rol ailənin, uşaq kollektivinin, qonşu birliklərin və digərlərinin üzərinə qoyulur.

L.S.Vıqotski şəxsiyyətin sosiallaşmasını psixoanalitik mövqedən əsaslandıraraq bu sahədə Z.Freydin ideyalarını təsdiqlədi. F.Zimbardo və M.Lyappe sosiallaşmaya (davranışa və düşüncə tərzinə) sosial təsirin tərəflərini aydınlaşdırdılar.

Yeniyetmələrin sosiallaşmasında qrup münasibətləri də mühüm sosial amillər sırasındadır. E.Meyo Xotornda apardığı eksperimentlər nəticəsində qrupların "formal" və "qeyri-formal" olaraq təsnifatını da irəli sürmüşdür[1].

K.L.Rocers[2], A.N.Leontyev[3], İ.S.Kon şəxsiyyətin sosiallaşmasını onun yaşadığı mühit şərtləri, fəaliyyət və münasibətlərdən

---

[1] Zdep, S. M. & Irvine, S. H. (1970) «A reverse Hawthorne effect in educational evaluation» // Journal of School Psychology 8, pp. 89-95.

[2] Роджерс К.Р. Становление личности. Взгляд на психотерапию. М.: ЭКСМО-Пресс, 2001

[3] Леонтьев А.Н. Деятельность. Сознание. Личность. М.: Академия, 2004

asılılığını geniş faktlarla əsaslandırırlar. A.Bandura və C.Rotterin sosial öyrənmə nəzəriyyəsində sosiallaşmada şəxsi keyfiyyətlərin öyrənməyə adaptasiyanın, özünüfəallaşdırma və özünücəzalandırmanın yolları, psixotexnikaları müəyyənləşdrilmişdir. B.Q.Ananyev məsələyə sosiallaşmanın psixoloji effektləri kontekstindən yanaşır. V.A.Suxomlinski yeniyetmələrin sosiallaşmasını "vətəndaşın doğulması" kimi təqdim edir. Bir çox digər araşdırmalar ailədə, cəmiyyətdə və təhsil prosesində şəxsiyyətin sosiallaşması istiqamətindədir.

Azərbaycanda tədqiqatçılar yeniyetmə qruplarının sosial-psixoloji xüsusiyyətlərini təhlil etmiş, onların özünəməxsus xüsusiyyətlərini, böhran xarakterini aydınlaşdırmışlar.

C.Midin və onun ardıcılları İ.Qoffman və M.Kun şəxsiyyətin sosiallaşması sahəsində konkret ideyalar irəli sürdülər. 1970-ci illərdə T.Parsons alternativ funksionalizmin əsasını qoyaraq şəxsiyyətin daxili aləmi və sosial proseslər arasındakı qarşılıqlı əlaqənin öyrənilməsini sosiologiya və sosial psixologiyanın başlıca vəzifələrinə daxil etdi.

Yeniyetməlik dövründə sosiallaşmanın xüsusiyyətləri sahəsində, bunların davranışda ifadə olunması məsələsi A.Q.Xripkova, T.A.Şneyder, S.Miller, K.A.Abdulxanova-Slavskaya, L.İ.Bojoviç, İ.V.Dubrovina, V.V.Zasepin, X.Remşmidt, T.Parsons, C.Miller, Y.Qalanter, B.Skinner, Y.Pribram və digər tədqiqatçılar həyat keçirmişlər.

Tədqiqatda, əlbəttə ki, bizi daha çox maraqlandıran məsələ demoqrafik amillərin şəxsiyyətə və onun sosiallaşmasına təsiri və bu təsirin yeniyetmələrdə necə baş verməsi olduğu üçün bu istiqamətdə sosioloji, sosial psixoloji, sosial pedaqoji tədqiqatları araşdırdıq. H.Ə.Əlizadə məsələyə daha əhatəli yanaşaraq tərbiyənin demoqrafik problemlərini tədqiq etmişdir. Müəyyən dərəcədə bu problemə öz münasibətin G.B.Tağıyeva, V.Ə.Məmmədov, P.B.Əliyev, L.İ.Əsgərov, S.A.Məmmədov, R.O.Məmmədova, X.A.Talıbova, X.Q.Yusufova bildirmişlər.

Tədqiqatlarda yeniyetmə şəxsiyyətinin sosiallaşmasına dinamik və ləngidici təsir göstərən demoqrafik amillər, onların əhatə dairəsi, xüsusiyyətləri və təsir imkanlarının araşdırılması üzrə

nəticələr də maraq doğurur. Dissertasiya işində bu istiqamətdə aparılan tədqiqatlar barədə də geniş məlumat verilir.

Birinci fəslin növbəti, "**Yeniyetməlik dövründə sosiallaşmanın xarakteri**" adlı paraqrafında yeniyetmələrin sosiallaşmasının özünəməxsus psixoloji problemləri nəzərdən keçirilir. Dünyada baş verən qlobal proseslərin risk vəziyyətini yaşayan gənclərdə necə baş verməsi prosesinin öyrənilməsi də vacibdir.

Yeniyetmələrdə etnik xüsusiyyətlərin dərk edilməsində özünüdeterminasiyanın rolu yüksəkdir. Onlar özünüinkişafa, özünütərbiyəyə üstünlük verməklə yanaşı öz şəxsiyyətlərini determinasiya edirlər. Nəticədə onlar mühitin sosial təsirlərinə və xarici müşahidələrindən yaranmış təəssüratlarına uyğun olaraq öz davranışlarını istiqamətləndirirlər.

Aydın məsələdir ki, həyatda müxtəlif demoqrafik çətinliklərlə (valideynlərdən birinin, yaxud hər ikisinin ölümü, boşanma, valideynlərdən ayrı yaşamaq, qaçqınlıq, köçkünlük, evsizlik, valideynlərin işsizliyi, kasıblıq, kirayədə yaşamaq, yaşayış yerinin dəyişməsi, xəstəlik, şikəstlik və s.) üzləşən yüzlərlə yeniyetmələr vardır. Belə yeniyetmələrin bir çox mənəvi, sosial, psixoloji problemləri olur. Məlumdur ki, özünüidentifikasiya, etnik amil, mədəni amillər, qrup daxilində formalaşan referent qrup yeniyetməlik yaşında mənlik şüurunun, mən-obrazının və idealının formalaşmasının əsas komponentinə çevrilir.

Yeniyetmə şəxsiyyətinin sosiallaşmasının mühüm tərəfləri həm də cinsi identifikasiya və özünüdərketmədir. Yeniyetmələrin özünüdərki əhəmiyyətli dərəcədə empatiyanın inkişafı ilə də bağlıdır. Əxlaqi, estetik və intellektual hisslərin bir-biri ilə əlaqəsində ləyaqət, qeyrət, məsuliyyət kimi hisslərin milli xüsusiyyətləri özünü göstərir, tədricən onun "Mənlik şüuru"nun mühüm komponentinə çevrilir. Yeniyetmənin özünüqiymətləndirmə səviyyəsi sosiallaşma səviyyəsinə üyğun gəlməlidir.

Yeniyetmələrin virtual əlaqələrə üstünlük verməleri, o cümlədən mədəniyyətlərdə təşəkkül tapmış sosiallaşma normaları da yeniyetmələrin sosiallaşmasına təsir göstərir. Müasir şəraitdə şəxsiyyətin sosiallaşması onun fəallığının bir hissəsi kimi qəbul edilir.

Birinci fəslin üçüncü paraqrafı “**Problemin tədqiqi metodikası**” adlanır. Demoqrafik amillərin neqativ təsirləri ilə üzləşmiş yeniyetmələrin sosiallaşmasının psixoloji xüsusıyyətlərinin öyrənilməsi probleminə bir neçə aspektdən yanaşma tələb edir. Ailələrdə bu problemlərin cəmiyyətə o qədər də açıq olmaması vəziyyəti daha da çətinləşdirir. Bu çətinlikləri aradan qaldırmaq üçün yeniyetmələrin təhsil aldıqları məktəblərdə diaqnostik iş aparmaq, real vəziyyəti bu yolla aşkar etmək daha məqsədəuyğundur.

Tədqiqatda etibarlı nəticələr əldə etmək üçün onu 3 mərhələdə apardıq.

Birinci mərhələ - müəyyənedici eksperiment üçün empirik materialların toplanılmasıdır. Bu mərhələdə biblioqrafik metodlardan və anket sorğulardan istifadə edildi. 2016-cı ilin sentyabr-dekabr aylarında Gəncə şəhərinin 5, 25, 4 və 12 saylı ümumtəhsil məktəblərində təhsil alan (V-IX siniflər) yeniyetmələr, onların valideynləri, müəllimlər və məktəb psixoloqları tədqiqata cəlb olundu.

Yeniyetmələrin sosillaşmasına neqativ təsir göstərən demoqrafik amillərin aşkar edilməsi sahəsindəki cəhdlərimiz göstərdi ki, onların yeniyetmə şəxsiyyətində təzahürü hər bir fərd üçün eyni tərzdə xarakterik deyildir. Bunu 482 nəfər yeniyetmənin valideynləri arasında keçirilmiş anket-sorğuların nəticələri, eləcə də tətbiq etdiyimiz diaqnostik metodların nəticələri göstərdi.

Bundan sonra I mərhələnin işləri məktəblərdə, müəllim və məktəb psixoloqlarının iştirakı ilə davam etdirilmiş və demoqrafik amillərin neqativ təsirləri ilə üzləşmiş yeniyetmələrin sosiallaşmasındakı çətinliklər bir neçə istiqamətdə diaqnozlaşdırılmışdır. Diaqnostikada V.S.Yurkeviçin “idraki tələbat səviyyəsinin müəyyən-ləşdirilməsi üzrə anket sorğusu” və C.Renzullinin “Məktəblilər üçün şəxsiyyət xüsusiyyətlərinin reytinq şkalası” metodikaları seçilmişdir. Metodikalar bizə demoqrafik amillərin neqativ təsirlərinə məruz qalmış yeniyetmələrin sosiallaşmasının ən mühüm tərəflərindən biri olan təlim motivlərini, öyrənmə maraqlarını, idrak fəallığını, təşəbbüskarlığını, kreativliyini və yaradıcılığını, şəxsiyyətinin reytinq göstəricilərini aydınlaşdırdı.

Bu mərhələdə məktəblilər üçün şəxsiyyət xüsusiyyətlərinin reytinq şkalasından (şagirdlərin idrak, motivasiya, yaradıcılıq və liderlik sahələrindəki xüsusiyyətlərini qiymətləndirmək üçün) da istifadə olunmuşdur.

II mərhələdə - ailəyə, məktəbə (təhsilə) və özünə münasibətin müəyyənləşdirilməsi üzrə diaqnostik işlər aparıldı. Əvvəlcə bu işlər kiçik yeniyetmələrlə həyata keçirildi. Onlarla E.Klessmanın ailədaxili münasibətlər haqqında proyektiv məlumatlar verən “Üç ağac” proyektiv metodikasını həyata keçirdik.

Sonra kiçik yeniyetmələrlə “özünümüəyyənləşdirmə” metodikası üzrə tədqiqat apardıq. Özünümüəyyənləşdirmə metodikasına 2 test tapşırığı daxil etdik. Birinci tapşırıq əsasında kiçik yeniyetmələrin sosial maraqlarını, özünün və ailə üzvlərini məişəti, sosial həyatı, təhsili ilə bağlı olan, onlardan birgə fəaliyyət tələb edən işlərə münasibəti öyrəndik.

Daha sonra məsuliyyətliliyin müəyyənləşdirilməsi üzrə sorğu-tapşırıq, Qorxu hissinin müəyyənləşdirilməsi metodikası (E.İ.Roqov), “Tamamlanmamış cümlələr” testi, K.Q.Yunqun şəxsiyyət sorğusu, müstəqillik dərəcəsinin müəyyənləşdirilməsi testi, “Kimə görə mən kiməm?”, Sişor testi – qrupda öz yerini müəyyənləşdirmə (adaptasiya) keçirdik.

III mərhələdə sosial adaptasiya və özünüfəallaşdırma proqramlarının tətbiqi həyata keçirildi.

Tətbiq etdiyimiz metodika ilə bağlı olaraq qənaətimiz belədir ki, onlar bizə demoqrafik amillərin neqativ təsirlərinə məruz qalmış yeniyetmələrin sosiallaşmasının sosial-psixoloji problemlərini aydınlaşdırmağa və onların neqativ təsirlərini aradan qadırmağa imkan verəcəkdir.

“**Yeniyetmələrin sosiallaşmasının demoqrafik problemləri**” adlı ikinci fəslində ilk növbədə “**Yeniyetmələrin sosiallaşmasına demoqrafik amillərin təsiri**” məsələsi nəzərdən keçirilir, sosiallaşma kateqoriyasının məzmunu və mahiyyəti dəqiqləşdirilir, şəxsiyyətin formalaşması məsələlərinə aydınlıq gətirilir. Asosial davranışa meylliliyin yaranmasının faktorları nəzərdən keçirilir, burada müxtəlif amillərin rolu (B.Bernstaynın dil kodları nəzəriyyəsi, Coan Tafın sosial təbəqələşmə barədə nəzəriyyəsi,

N.Nyukombun şəxsiyyətin sosiallaşması prosesinin mühitdən asılılığı ideyaları)[1] təhlil olunur. Belə bir nəticə çıxarılır ki, yeniyetmə şəxsiyyətinin sosiallaşması prosesi cəmiyyətdə gedən proseslərlə sıx əlaqədə olduğundan, onun bütün sahələrində baş verən dəyişikliklər ciddi şəkildə şəxsiyyətin strukturuna nüfuz edərək yeni tələbatlar, dəyərlər, maraqlar yaradır.

Bu istiqamətdə ailə problemləri diqqəti cəlb edir. Son dövrlərdə ailə möhkəmliyinin zəifləməsi obyektiv səbəblər nəticəsində uşaqların bir qisminin ailədə normal şəraitdə böyüməməsi, onların sağlamlığının qorunması üçün bir sıra problemlər yaratmışdı. Məktəbin sosial funksiyasının genişləndirilməsi, ictimai həyatın demokratikləşdirilməsi və humanistləşdirilməsi şəraitində bu problemlər xüsusi əhəmiyyət kəsb edir. Apardığımız təhlillərə əsaslanaraq yeniyetmələrin sosiallaşması anlayışı ilə yanaşı "sosiallaşa bilməmək" anlayışının da işlənməsini məqsədəuyğun hesab etdik. Belə ki, demoqrafik amillərin təsiri ilə sosiallaşma prosesini yaşayan şəxsiyyətdə demoqrafik situasiyaya uyğun olaraq yaranan yeni münasibət tipi başqalarının da ona münasibətini dəyişdirir. Bu yenidənqurulma prosesi hər bir şəxsiyyətdə psixoloji gərginliklər, münaqişələr, emosional-iradi dəyişikliklərlə müşayiət olunur, hətta xəstəliklər əmələ gətirir. Bu halda şəxsiyyətin gözlənilən dəyişikliklərə hazırlanması sosial institutlar, xüsusilə ailə institutu qarşısında duran başlıca vəzifədir.

Ikinci fəslin növbəti paraqrafı "**Demoqrafik problemli ailədə yeniyetmələrin sosiallaşmasının çətinlikləri**" adlanır. Ailə yeniyetmələrin sosialllaşmasının ilkin mənbəyi götürülür. Tədqiqatçıların qeyd etdiyi kimi, emosional əlaqələrin, təbii və rahat yaşamaq məkanı olan ailənin durumu sosiallaşmada başlıca rol oynayır. Ona görə də ailədə uşaqlara yaradılmış sosial inkişaf şəraiti, ailədaxili münasibətlər, valideynlərin tərbiyə üslubu onların sosiallaşmasına demoqrafik proseslərin təsirinin xarakterini müəyyən edir. Yəni yeniyetmələrin sosiallaşmasının, yaxud əksinə, sosiallaşa bilməməsinin ailə ilə bağlı başlıca səbəbi burada

---

[1] Ньюкомб Н. Развитие личности ребенка. СПб.: Питер, 2003

uşaqlar üçün yaranmış sosial inkişaf şəraitidir. Valideynlərin pedaqoji cəhətdən savadlı olması demoqrafik amillərin neqativ təsirinin neytrallaşmasına şərait yaradır. Yəni valideynlər uşağın sosial inkişaf şəraitini səmərəli təşkil etdikdə bu amillərin təsiri neqativ xarakter daşımır.

Valideynlərlə uşaqların ünsüyyətinin düzgün qurulmaması və bu əsasda uşağın sosial inkişaf şəraitinin səmərəli xarakter daşımaması yeniyetmələrdə davranış və şəxsiyyət pozuntularının yaranması ilə nəticələnir[1]. Təəssüf ki, münaqişəli ailələrdə zorakılıq hallarına da rast gəlinir, bu da yeniyetmələrin psixoloji əhvalına, özünüqiymətləndirməsinə mənfi təsir göstərir.

Natamam ailələrdə valideyn daha çox ailənin maddi çətinliklər və qayğıları ilə yaşadığından onların istək və arzularından, maraqlarından xəbərsiz olur. Məktəbdə də diqqətdən kənarda qaldıqda bu onun təhsildən soyuması, təlim fəaliyyətindən yayınması ilə nəticələnir. Bu hal davamlı xarakter daşıyırsa, yeniyetmələr ailədən uzaqlaşmağa, "dostlarına" daha böyük əhəmiyyət verməyə, özlərini daha çox "müstəqil" şəxsiyyət kimi aparmağa, tamamilə fərqli həyat tərzi sürməyə meyl edirlər.

Ikinci fəslin "**Demoqrafik amillərin yeniyetmələrə neqativ təsirinin aradan qaldırılmasında sosial institutların birgə fəaliyyəti**" adlı ikinci paraqrafında göstərilir ki, psixologiyada şəxsiyyətin sosiallaşması özünüdərketmə, özünümüəyyənləşdirmə, özünüidentifikasiya, özünüqiymətləndirmə kimi komponentlərin inkişafı ilə bağlıdır. Yeniyetmələrin demoqrafik amillərin neqativ təsirləri nəticəsində bir çox mənəvi, sosial, psixoloji problemləri olur, bunların da aradan qaldırılması cəmiyyətdə fəaliyyət göstərən sosial institutların birgə səyləri nəticəsində mümkündür.

Sosial institut olan təhsil sisteminin yeniyetmənin sosiallaşmasında rolu danılmazdır. Yeniyetmənin sosiallaşmasında sinif məkanında yeniyetmələrlə qrup işinin təşkili məqsədilə yaradılan şəraitdə onların qarşılıqlı əlaqələrinin, xüsusiyyətlərinin öyrənilməsinin mühüm əhəmiyyəti var.

---

[1] Дерманова И.Б. Типы социально-психологической адаптации и комплекс неполноценности // Вестник СПб. ун-та, сер.6, вып.1, №6, с. 59-67

Məktəbin işinin səmərəliliyi çox vaxt onun valideynlərlə işi nə dərəcədə düzgün qurmasından, onların köməyindən nə dərəcədə düzgün istifadə etməsindən asılı olur.

Tərbiyə məsələlərinin həllində ailə mühüm yer tutur. Məktəbin vəzifələri ailə ilə hərtərəfli inkişaf etmiş sağlam şəxsiyyətin tərbiyəsi üçün əlaqələr yaratmaq, məktəblə ailənin səylərini birləşdirib uşaqların sosial reabilitasiyası və adaptasiyası üçün şərait yaratmaqdır.

Yeniyetmələrin sosiallaşmasına ciddi təsir göstərən digər sosial institut KİV-dir. Yeniyetmə, xüsusilə evdə tək olarkən virtual ünsiyyətə can ataraq KİV vasitələrindən istifadə edir, onların təsiri altına düşür. Yeniyetmələrin nizamsız, kortəbii sosiallaşmasında Internet əlaqələri xüsusi rol oynayır. Kompyüterlə iş bir tərəfdən əlaqələrin genişlənməsinə, sosiomədəni dəyərlərin mübadiləsinə imkan verir, digər tərəfdən o, "internet asılılığı sindromu" yaranır. Bu zaman maraqların məhdudlaşması, reallıqdan uzaqlaşma, kompyüter oyunları içərisində itib-batmaq, sosial təcridolunma, reallıqdan uzaqlaşma, emosional reaksiyaların zəifləməsi kimi zərərli emosional vəziyyət yaranır.

Demoqrafik, sosial, psixoloji problemlərin getdikcə dərinləşməsi üzündən insanın psixoloji müdafiəsi cəmiyyət həyatının müxtəlif sahələrində, xüsusilə təhsil sistemində psixoprofilaktik tədbirlər əsasında görülməlidir. Dissertasiyada yeniyetmələrlə aparılan profilaktik işlərdə bir sıra konkret vəzifələrin həlli yolları göstərilir.

Bütövlükdə demoqrafik amillərin neqativ təsirlərinə məruz qalmış yeniyetmələrin sosiallaşmasında ailə, məktəb, və ictimaiyyətin qarşılıqlı fəaliyyəti olduqca vacibdir.

"**Yeniyetmələrin sosiallaşmasına demoqrafik amillərin neqativ təsirinin aradan qaldirilması**" adlı üçüncü fəsildə ilk növbədə "**Demoqrafik amillərin neqativ təsirinə məruz qalmış yeniyetmələrin sosiallaşdırılması texnologiyası**" problemi nəzərdən keçirilir.

Dissertasiyanın bu bölməsində demoqrafik amillərin neqativ təsirinə məruz qalmış yeniyetmələrin sosiallaşması üçün həyata keçirilən dövlət proqramları nəzərdən keçirilib. Bu istiqamətdə aparılan psixoloji-pedaqoji işin istiqamətlərinə diqqət yetirilmiş və

Rusiya, Fransa, Polşa, İngiltərə və başqa ölkələrdə yeniyetmələrin sosiallaşması üzrə dövlət proqramlarının istiqamətləri əsasında aparılan eksperimental tədqiqatın məqsəd və vəzifələri təhlil olunmuşdur[1]. Bu proqramlarda demoqrafik problemləri olan yeniyetmələrlə aparılan işlərin bir sıra psixoloji xüsusiyyətləri nəzərdən keçirilmişdir (əsasən reallaşdırılacaq işlərin sosial-psixoloji məzmunu). Qəbul olunan və həyata keçirilən proqramlarda yeniyetmələrə göstəriləcək psixoloji xidmət onların sosial adaptasiya və identifikasiyası, yaradıcılıq qabiliyyətlərinin, idman nailiyyətlərinin və təlim fənləri üzrə uğurlarının inkişaf etdirilməsi, o cümlədən qrupda birgəfəaliyyət şəraitində sosiallaşması üçün nəzərdə tutulmuşdur. Keçirilən eksperiment imkan verdi ki, bu işləri məktəblərdə ailənin məktəblə (müəllimlərin valideynlərlə) əməkdaşlığı şəraitində həyata keçirək.

Eksperiment üç mərhələdə aparıldı.

I mərhələdə demoqrafik amillərin neqativ təsirləri ilə üzləşmiş, tədqiqata cəlb edilmiş yeniyetmələrin real demoqrafik vəziyyətinin sosial psixoloji xüsusiyyətləri öyrənildi. II mərhələdə əldə edilmiş faktlar, diaqnostik nəticələr əsasında yeniyetmələrlə aparılacaq profilaktik-korreksion işlərin başlıca prinsipləri, məqsəd və vəzifələri müəyyənləşdirildi, növbəti mərhələdə reallaşdırılacaq işlərin hərəkət planı, təlimatlar və korreksiya metodikaları hazırlandı.

III mərhələdə, I və II mərhələdə görülmüş işlərin yeniyetmənin probleminə uyğunluğunu təmin etmək üçün onlar konkret situasiyalarda sınaqdan keçirildi. Treninqlərdə reallaşdırılan problem situasiyalar, psixoloji dramlar, rollu oyunlar buna xidmət etmişdi. Lazımi tədbirlər "Demoqrafik amillərin neqativ təsirinə məruz qalmış yeniyetmələrin sosial-psixoloji adaptasiyası və identifikasiyası Proqramı" əsasında həyata keçirilmişdir.

Üçüncü fəslin növbəti, "**Yeniyetmələrin sosiallaşmasına demoqrafik hadisələrin neqativ təsirinin təyini**" adlı bölməsində aparılan psixoloji eksperimentin nəticələri əsasında

---

[1] Ремшмидт Х. Подростковый и юношеский возраст: Проблемы становления личности: Пер. с нем. М.: Мир, 1994

yeniyetmələrin sosiallaşmasına demoqrafik hadisələrin neqativ təsiri müəyyən edilmişdi.

2016-cı ildə eksperimentin keçirilməsi məqsədi ilə Gəncə şəhərinin 5, 25 saylı tam orta məktəbləri – eksperimental, 4 və 12 saylı tam orta məktəbləri kontrol məktəblər kimi götürüldü. Bu məktəblərdə valideynlərlə aparılan sorğu əsasında yeniyetmələr arasında demoqrafik amillərin neqativ təsirlərinə məruz qalanları ayırd etdik.

Keçirilən sorğu əsasında müəyyənləşdirilmişdir ki, 482 nəfər valideynin 156 nəfəri (32 %) bu və digər demoqrafik hadisə ilə üzləşmişdir. Onların üzləşdikləri spesifik problemlər yaşayış yerinin dəyişməsi, yaxud kirayədə qalmaq – 31 %; valideynlərin işsizliyi, kasıblıq – 24 %; valideynin ölümü, yaxud boşanma -24 %; qaçqınlıq, məcburi köçkünlük -8 %; xəstəlik - 13 % olmuşdur.

Natamam ailələrin 31-də ata yoxdur, 6 ailədə isə uşaqlar anasız böyüyür, uşaqlar ya nənə-baba, ya da yaxın qohumların himayəsindədirlər. 8-% ailə qaçqınlıq statusu ilə yaşayır. Xəstəlik kateqoriyasına aid olan yeniyetmələr 13 % təşkil edir. Valideynlər əksər hallarda qayğılarla yaşayır, asudə vaxtlarını istədiyi kimi keçirə bilmirlər, övladlarının tərbiyəsində və təminatında valideynlik borcunu layiqincə yerinə yetirə bilmirlər.

Eksperimental V-IX siniflərdə təhsil alan 81 yeniyetmə ilə aparılan sorğular göstərdi ki, işsizlik problemləri olan, eləcə də qaçqınlıq həyatı yaşamış ailələrdə yeniyetmələrin idraki tələbatları yüksəkdir. Kirayədə yaşayan və natamam ailələrdən olan yeniyetmələrin idraki tələbatlarının göstəriciləri orta səviyyədədir. Xəstə yeniyetmələrdə bu göstərici aşağıdır. Onlarda söz ehtiyatı orta səviyyədədir, anlayışlardan terminlərdən yeri gəldikdə istifadə edir, nitqi əsasən yaşına uyğundur. Onları maraqlandıran mövzulara dair informasiya üzərində işləyir, yaxşı izah edilmiş və anladığı informasiyanı əsasən yadda saxlayır, fərdi yanaşma olduqda yenidən yada sala bilir.

II şkalada verilmiş motivasiya xüsusiyyətlərinə görə sınanılan kiçik yeniyetmələrin bir qismi məsuliyyətlidir, verdiyi sözə əməl etməyə çalışır, yaxşı yerinə yetirməyə cəhd göstərir, lakin nəticə həmişə uğurlu olmur. Həmyaşıdları və böyüklərlə

ünsiyyətdə özünü sərbəst göstərir, lakin o qədər də inamlı deyillər. Onlardan öz bacarığını nümayiş etdirməyi xahiş etdikdə tərəddüdlə yanaşır, bəhanələr gətirirlər. Ünsiyyətə o qədər də həvəslə girmirlər, lakin ünsiyyətdə səmimidirlər.

Bundan sonrakı tədqiqatlarımız bilavasitə sınanılanlarla aparılmışdır. "Üç ağac" proyektiv metodikasının nəticələri göstərdi ki, demoqrafik amillərin neqativ təsirləri ilə üzləşmiş kiçik yeniyetmələrin ailə dəyərləri, ailə münasibətləri, valideynlərlə sosial əlaqələrin əhatəliliyi haqqında bitkin təsəvvürlər olmasa da onlara qarşı emosional bağlılıq var.

Testin nəticələri, həmçinin onu göstərdi ki, demoqrafik amillər kiçik yeniyetmələrdə tələbatların ierarxiyasında daha aşağı pillədə duran fiziki, sevilmək, qəbulolunmaq, müdafiə və təhlükəsizliyi aktual olaraq saxlayır. Nəticədə yeniyetmələrdə hələ də özünüqiymətləndirmə və özünüreallaşdırma tələbatları ləngimiş olur. Bu kiçik yeniyetmələrin sosiallaşmasına mənfi təsir göstərir.

Bundan sonra "Özünümüəyyənləşdirmə" metodikası əsasında kiçik yeniyetmələrlə 2 test-tapşırığı keçirdik. Müəyyən olundu ki, gün ərzində vaxt qeyri-səmərəli bölünür. Daha sonra, kiçik yeniyetmələrin qorxduqları hadisələr onların fərdiyyətindən, təlimə və məktəbə münasibətindən, eləcə də demoqrafik problemlərindən asılı olaraq dəyişir. Xəstə və natamam ailələrdən olan yeniyetmələrdə qorxular daha çoxdur. Onlar xəstəlik, fövqəl varlıqlar və qaranlıqdan çox qorxurlar. Kirayədə qalan və valideynləri işsiz olan yeniyetmələr daha çox ləyaqət hissinə toxunulmasından qorxurlar. Qaçqın ailədən olanlar yad insanlardan çox qorxurlar.

Böyük yeniyetmələrin diaqnostikası üçün "Tamalanmamış cümlələr" testini sınaqdan keçirdik. Nəticələr göstərir ki, demoqrafik təsirlərlə üzləşmiş yeniyetmələrdə valideynlərə və ailədənkənar, bilavasitə sosial münasibətlərdə olduğu insanlara, eləcə də sosial mühitin digər faktorlarına qarşı kifayət qədər neqativ münasibət vardır. Onların bir çoxu özünün imkan və xüsusiyyətlərini, bütövlükdə öz varlılğını aşağı qiymətləndirirlər. Bu da, əlbəttə ki, onların sosial adaptasiyası, özünüreallaşdırması üçün başlıca maneədir.

Bu tədqiqatdan sonra K.Q.Yunqun şəxsiyyət sorğusu əsasında böyük yeniyetmələrin sosiallaşmasının əsasında duran təbii

faktorlardan birini – onların şəxsiyyət tipini, üstünlük təşkil edən temperament xassələrini də müəyyənləşdirdik.

Sınanılanlarda introversiya, ekstroversiya və amboversiya üzrə faiz dərəcələri ehtimallara uyğun oldu. Onların 43 %-də introversiya vəziyyəti üstünlük təşkil edir. Özlərinin təəssürat dünyasında yaşayırlar. Az ünsiyyətcil və sakitdirlər. Çətinliklə yeni tanışlıqlar yarada bilirlər. Risk etməyi sevmirlər, köhnə əlaqələrin qırılması onlara pis təsir göstərir, yüksək həyəcanlı və astagəldirlər. Fleqmatik və melanxoliklərdə bu tip üstünlük təşkil edir.

30 sınanılanda ekstoroversiyalılıq üstün oldu, onlar ünsiyyətə asan girirlər, aqressivlik səviyyəsi onlarda yüksəkdir, liderliyə meyillidirlər, diqqət mərkəzində olmağı sevirlər, səmimi, ünsiyyətcil, impulsivdirlər, xolerik, sanqvinik tip onlarda üstünlük təşkil edir.

28 % təşkil edən ambovertlərdə hər iki tipin aralıq (qarışıq) xüsusiyyətləri özünü göstərir. Fərziyəmizə görə demoqrafik amillərin neqativ təsirlərini özündə daha çox hiss edənlər də məhz ambovertlərdir, çünki sosial situasiyaların neqativliyi, mühitin uyğunsuzluğu, əlverişsizliyi səbəbindən özünüdərketmədə, özünüqiymətləndirmədə və özünümüəyyənləşdirmədə yaranmış cətinliklər şəxsiyyət xassələrinin qarışıq dərk edilməsinə səbəb ola bilər.

Üçüncü fəslin sonuncu paraqrafında "**Həmyaşıdlarla birgə fəaliyyət şəraitində yeniyetmələrin sosiallaşdırılması**" adlanır. Yeniyetmələrin insanlarla qarşılıqlı münasibətlərindəki ünsiyyət çətinlikləri sosial - psixoloji motivlərlə bağlı olub, ilk növbədə, kommunikativ maneələr yaradır, Psixologiyada belə maneələri ünsiyyət mədəniyyəti, sivil dialoq bacarığı, şəxsiyyətdaxili münaqişələrdə fikir aydınlığı yaratmaqla asanlaşdırmaq mümkün olur. Apardığımız korreksion işlərin istiqaməti yeniyetmələrdə şəxsiyyətin sosiallaşmasındakı ləngimələrin qarşısının alınması, inkişafına demoqrafik amillərin neqativ təsirini və təlim fəaliyyətində yaranmış problemlərin aradan qaldırılması oldu.

2017-ci ildə həyata keçirilməyə başladığımız eksperiment təhrikedici eksperimentdir. Tədqiqatda onların şəxsiyyətinə təhrikedici mənəvi-psixoloji təsir göstərilərək motivasiyasında, davranışında və nəhayət, sosial aləmə münasibətində dəyişiklik yaradılır. Bununla yanaşı, eksperimentdə digər sahələr üzrə də

dəyişikliklərin baş verməsinə planlı şəkildə nəzarət olunmuşdur. Yeniyetmələrin sosial fəallığının artırılması məqsədilə nəzərdə tutulmuş tədbirlər planı tərtib olundu.

Əvvəlcə 5 və 25 saylı məktəblərdə təhsil alan, eksperimental qruplarda təlim olunan sınanılanlarla korreksiya işlərinə başladıq. Sınanılanlar haqqında zəruri məlumatlar topladıq. Sonra sınanılanlarla qabiliyyətlərin diaqnostikasını A.A.Losevanın "Qabiliyyətlərin aşkar edilməsi metodikası" əsasında apardıq (əlavə 11). Bu diaqnostikaya görə kontrol siniflərdəki 156 nəfər sınanılanları 3 istiqamətə yönəltdik: elm; yaradıcılıq; idman.

Hər bir sahə daxilində bütün xüsusiyyətlər üzrə ballar toplandı və orta qiymətlər müqayisə edildi. Bu göstəricilər arasında sınanılanlar üçün münasib olan ən yüksək 4 sahəni müəyyənləşdirdik. Bu, sınanılanların qabiliyyətlərinin üstün tərəflərinin göstəriciləri idi. Nəticəyə görə ona öz qabliyyətlərini inkişaf etdirməsi üçün təklif etdiyimiz 4 sahədən birini seçməyi tövsiyə etdik. Seçimlərə görə sınanılanlarda müvafiq istiqamətlər üzrə uğur motivasiyası korreksiyası başlandı.

Sınanılanların ekspert və şəxsi seçimləri üzrə korreksiya istiqamətləri

**Cədvəl 1**

| Qabiliyyət sahələri | Seçimlər | eks. 81 | kon. 75 | cəmi sınanılanlar | |
|---|---|---|---|---|---|
| | | | | nəfər | faizlə |
| Elm | I. İntellektual sahə.<br>II. Akademik nailiyyətlər sahəsi.<br>VII. Texniki sahə. | 21 | 18 | 39 | 25 |
| Yaradıcılıq | III. Yaradıcılıq sahəsi.<br>IV. Ədəbiyyat sahəsi.<br>V. İfaçılıq sahəsi.<br>VI. Musiqi sahəsi.<br>IX. Bədii yaradıcılıq sahəsi | 31 | 29 | 60 | 38 |
| İdman | VIII. Hərəki sahə.<br>X. Ünsiyyət və liderlik sahəsi. | 29 | 28 | 57 | 37 |
| Cəmi | 10 sahə | | | 156 | 100 |

Sınalılanlardan 25 % - elm, 38 % yaradıcılıq, 37 % idman sahəsini seçmişdir. Bundan sonrakı tədqiqatımızı yalnız eksperimental siniflərdəki yeniyetmələrdə davam etdirdik. Siniflər üzrə də onların seçimlərini müəyyən etdik. Bu nəticələr əsasında korreksiya işinin birinci istiqaməti sınanılanlarda təlim motivasiyasının artırılması oldu. İkinci, paralel apardığımız istiqamət onlarda bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə yönlədirildi. Üçüncü istiqamət sınanılanlar tərəfindən idman uğurlarının əldə edilməsi idi. Bu məqsədlə eksperimental şəraitin dəyişməsi üçün istifadə edilmiş metodikaya bunları daxil etdik:

-yeniyetmələrin sosialllaşmasında baş verən ləngimələrin korreksiyası:

-yeniyetmələrin psixoloji göstəricilərində yaranan emosional problemlər;

-fərdi-psixoloji xassələrdə neqativ vəziyyət yaradan problemlər.

Eksperimentin nəticələrinin etibarlı olması üçün onun hər bir mərhələsində təşkilati tədbirlər həyata keçirilirdi:

Korreksiya proqramlarının məzmunu

I - elm: bilikləri mənimsəmənin asan yolu - korreksiya proqramı

Giriş. Biliklərin mənimsənilməsi mürəkkəb psixoloji proses olub, insanın təbii imkanları, o cümlədən sosial şəraitlə bağlıdır. Bu prosesdə fərdi-psixoloji xüsusiyyətlərdən (temperament, xarakter, qabiliyyət) tutmuş intellekt, koqnitiv sahə (qavrayış, hafizə, diqqət, təfəkkür, nitq, təxəyyül, emosiya, iradə və s.), koqnitiv üslub, kommunikativ bacarıqlar və s. iştirak edir.

Proqramın məqsədi: sınanılanların mənimsəmə imkanlarını, bu sahədəki potensial qabiliyyətlərini fəallaşdırmaq və inkişaf etdirmək.

Proqrama aşağıdakı modulları daxil etdik:

I-mənimsəmə motivasiyası: qavrayış; diqqət; hafizə; təfəkkür; nitq; intellekt.

II-yaradıcılıq: özünü yaradıcı prosesdə kəşfetmə: (yaradıcı qabiliyyətlərin yaradıcı sahələrə tətbiqi; yaradıcı inkişaf; yaradıcılıq priyomları; yaradıcı əlaqələr:

III –idman və liderlik: özünün enerji potensialını müəyyənləşdirmə və reallaşdırm: idmançının fərdi xüsusiyyətləri; idmançının fəaliyyətinin motivasiya və ustanovkası; idmançının subyektiv fəallığı; idman komandalarında qarşılıqlı münasibətlər.

Hər üç qrup üzrə ümumi modullar - Qrup yoldaşları ilə əməkdaşlıq; Tələbatların inkişafı: Treninqlərin keçirilmə üsulları:

2 ay müddətində treninqlər aşağıdakı mövzular üzrə keçirildi:- Özünükəşfetmə; Şəxsi keyfiyyətlərin açılması; Təlim motivasiyasının müəyyənləşdirilməsi; İştirakçıların seçdikləri sahələr üzrə bacarıqlarının müəyyənləşdirilməsi; Təlim uğurlarına inamın artırılması; Təhsilalma imkanlarının və maneələrin dəf edilməsi; Uğur motivasiyası; Qrup və Mən.

Eksperimentdə tətbiq edilməsi nəzərdə tutulan işlərin təşkilindən sonra kontrol və eksperimental siniflərdə təkrar diaqnostik iş aparıldı. Bu zaman "Kimə görə mən kiməm?" testini keçirdik. Burada demoqrafik amillərin neqativ təsirləri ilə üzləşmiş yeniyetmələrin davranışı və münasibətlərinin inkişafı, kollektivə uyğunlaşdırılması üçün mühüm nəticələr əldə edildi. Onların şəxsi dəyərləndirmələri əsasında özü, ailəsi, dostları və müəllimləri tərəfindən necə qiymətləndirildiyi aşkar olundu. Bu bizə yeniyetmələrin özünüqiymətləndirməsini öyrənmək baxımından lazımlı məlumatlar verdi.

Sonra Sişor testi ilə böyük yeniyetmələrin qrupda öz yerini müəyyənləşdirmə və adaptasiya imkanlarını aydınlaşdırdıq. Məlum oldu ki, eksperimental qrupdakı yeniyetmələrdə özünüqiymətləndirmə ilə yanaşı "Qrup və Mən"ə münasibət əhəmiyyətli dərəcədə dəyişmişdir. Onlar testin aşağıdakı suallarını cavablandıraraq kontrol qrupdakından daha yüksək nəticələr göstərdilər.

I. Qrupdakı yerinizi necə qiymətləndirərdiniz?

II. Belə bir imkanınız olsaydı öz qrupunuzu dəyişərdinizmi?

III. Qrupunuzun üzvləri arasında qarşılıqlı münasibətlər necədir?

IV. Məktəbin (müəssisənin) rəhbərliyi ilə münasibətləriniz necədir?

V. Kollektivinizdə təhsilə münasibət necədir?

Test işlənərkən suallardan yalnız biri seçilərək nömrəsi dairəyə alınır. Açardan eksperimentator özü istifadə edir. Əgər qrup üzvləri istəyərlərsə nəticələr haqqında məlumat ya ümumilikdə, ya da fərdi qaydada elan oluna bilər.

Eksperimental və kontrol qruplarda Sişor testi üzrə sınanılanların nəticələri

**Cədvəl 2**

| Ballar | nəticələr | | | | cəmi sınanılanlar | |
|---|---|---|---|---|---|---|
| | nfər | Faiz | nəfər | faiz | nəfər | faizlə |
| Ən yüksək: 14-19 | 31 | 38 | 25 | 33 | 56 | 36 |
| Yüksək: 5-13 | 41 | 51 | 33 | 44 | 74 | 47 |
| Aşağı: 0-5 | 9 | 11 | 17 | 23 | 26 | 17 |
| Cəmi | eks. 81 | | kon. 75 | | 156 | 100 |

Cədvəldə hər iki qrupun nəticələri arasındakı fərqlər aydın görünür. Bu fərqlər tədqiqatda eksperimentin gedişi boyu müşahidələrimizdə, müzakirələrdə, münasibət və davranışlarda, treninqlərdə və dərslərdəki fəallığında eksperimental qrupların üzvlərində baş verən dəyişiklikləri bir daha təsdiq etdi. Bunu aşağıdakı şəkildə də izləyə bilərik.




**Şəkil 1.** Eksperimental və kontrol qruplarda nəticələrin korrelyasiyası

İndi isə eksperimentdən əvvəlki vəziyyətə görə yeniyetmələrin emosional-iradi sahəsində gedən dəyişikliklərin fərqini aydlnlaşdıraq. Bunun üçün Lüşerin rəng testindən istifadə etdik. “Üç ağac” testinin nəticələri arasında korrelyasiya apardıq. Eksperimental qrupdakı vəziyyət belə olmuşdur.

1. Həyəcanlılıq vəziyyətindəki fərq - 11 % aşağı;
2. Emosional narahatlıq vəziyyətindəki fərq - 12 % aşağl;
3. Özünüqiymətləndirmə fərqi – 14 % yuxarı;
4. İradəlik- 11 % yuxarı olmuşdur.

İradəliyin artım dinamikasının gözlənilən qədər yuxarı olmamasının səbəbləri araşdırılarkən bunun vaxt amili ilə bağlı olduğu müəyyənləşdirilmişdir. Belə ki, müvafiq olaraq elm, yaradıcılıq və idman növləri üzrə əldə edilən uğurların artması, təlimlər, müsabiqə və yarışlardakı uğur və qələbələr də iradəliyi mütənasib olaraq aparır.

Tədqiqat göstərdi ki, əhəmiyyətli psixoloji faktlar əldə etmək üçün apardığımız eksperiment müsbət nəticələr vermişdir. Hazırladığımız “Demoqrafik amillərin neqativ təsirləri ilə üzləşmiş yeniyetmələrin sosial-psixoloji adaptasiyası və identifikasiyası Proqramı”nın əhəmiyyəti böyük oldu. Aparılmış korreksiya işləri son nəticədə yeniyetmələrdə müvafiq sosial keyfiyyətlərin, xüsusilə özünəinamın inkişafına müsbət təsir göstərmiş, onlarda özü, ailə, həmyaşıdlar, müəllimlər, cəmiyyət üçün yararlı ola bilmək ümidi, özünəinamı artmışdır. Bu sahələr arasında əlaqələr yaratmaq üçün məsləhətləşmələr, izahlar aparılmışdır.

Yeniyetmələrin ətrafdakılarla qarşılıqlı münasibətlərinin qeyri-müəyyən xarakteri, ilk növbədə, onların bir-birini tam qəbul etməmələri və ünsiyyətdə əlverişli vasitələr seçməkdə çətinlik çəkmələri ilə izah olunur. Bu reallığı nəzərə alaraq korreksiya proqramına cəlb olunan yeniyetmələrlə onları maraqlandıran fəaliyyət sahələri, uğurlu şəxsiyyətlər, böyük nailiyyətlər qazanmış idmançlar, elm adamları, ixtiraçılar və digərləri haqqında söhbətlər, müzakirələr aparılırdı.

Qarşılıqlı münasibətlərdə əsas rol oynayan amil fərdi-psixoloji xüsusiyyətlərlə də izah olunur. Təcrübə göstərdi ki, yeniyetmələr arasında qarşılıqlı münaslbətlərin və adaptasiya proble-

minin həlli heç də onların təlim, yaradıcılıq və idman uğurlarından deyil, məhz öz yoldaşlarına qarşı humanist münasibətindən çox asılıdır. Əgər yeniyetmə bu keyfiyyətlərə malikdirsə, onun əldə etdlyi uğurlar qarşılıqlı münaslbətlərə müsbət təsir edən ikinci dərəcəli amil kimi özünü göstərir.Yeni münasibətlərə, normalara, fəaliyyətə adaptasiya dövründə yeniyetmələrin bəzilərinin həyəcanlı, əsəbi olduğunu nəzərə alaraq onlarla mərhələli iş aparılırdı. Məhz buna görə də həmin dövrdə ən münasib şəraitin yaradılması yeniyetmələrin yaradıcılıq şəraitinə asanlıqla alışmaları ilə yanaşı, fiziki iş qabiliyyətinin də artırılmasına kömək etmişdir.

Tədqiqatımızın daha bir uğurlu tərəfi ondan ibarət idi ki, iş apardığımız məktəblərdə şagirdlər, müəllimlər və valideynlər mütəmadi olaraq psixoloqa müraciət edirdilər. Hətta, təhsillə bu və digər sahədə əlaqələri olan yaşlı insanlar belə müxtəlif xarakterli problemlərlə bağlı olaraq psixoloji xidmətdən yararlanmağa çalışırdılar.

Qeyd edilənləri əsas götirərək apardığımız **tədqiqatın nəticələrini** belə ümumiləşdirə bilərik.

Apardığımız təhlillər göstərdi ki, yeniyetmə şəxsiyyətinin sosiallaşmasında etnomədəniyyət və sosial institutlar durur. İnsanın insani keyfiyyətləri də məhz onun sosiallaşmaq bacarığında, qabiliyyətində və istedadında ifadə olunur, lakin heç də həmişə fərdi imkan və qabiliyyətlər ətraf mühitin inkişaf edən fərdə neqativ, o cümlədən demoqrafik amillərin təsirləri qarşısında dura bilmir.

Müəyyən edilmişdir ki, sosial maraqların yarandığı ən intensiv dövr yeniyetməlikdir. Yeniyetmə şəxsiyyətinin sosiallaşmasına neqativ təsir göstərən amillər heç də həmişə birbaşa xarakter daşımır. Məsələn, ailənin demoqrafik quruluşunda yaranan dəyişikliklər ailədaxili münasibətlər sistemində yaratdığı çətinliklər yeniyetmələrin sosiallaşmasında bilavasitə təsiredici amil kimi özünü göstərir.

Şəxsiyyətin sosiallaşması prosesində onun üzləşdiyi ən böyük çətinlik özünə, özünün şəxsi həyatına, ailədaxili münasibətlərə və sosial əlaqələrə münasibətinin dəyişməsi, ümidsizlik və çarəsizlik hissi ilə müşayiət olunur. Məhz bu dəyişmə onun fəa-

liyyətində, ünsiyyətində və sosial (qrup) münasibətlərində dəyişikliklər yaradır. Özünün sosial-psixoloji portretinə görə neqativ təsirlərlə üzləşmiş yeniyetmə qrupları normal həmyaşıd qruplarından fərqlənirlər.

Eyni demoqrafik amillə üzləşmiş yeniyetmələrə onun təsirləri də fərqlidir. Buna səbəb yeniyetmələr üçün ailədə əlverişli sosial inkişaf şəraitinin yaradılmaması, ailədaxili münaqişələr və bu fonda yeniyetmələrə qarşı edilən zorakılıqlar (belə vəziyyətdə yeniyetmələrdə özünüqiymətləndirmə, özünüdrketmə, özünəinam zəifləyir, onlar bəzən zərərli asosial qruplara qoşulurlar), yeniyetmələrdə "Mənlik şüuru" və "Mən konsepsiya"nın formalaşmasında ləngimələr, fasilələr, tərəddüdlər yarandığından onlar öz potensialını tam şəkildə reallaşdıra bilmirlər, bu zaman onlarda özü haqqındakı təsəvvürlərində bəsitlik, dəyərsizlik kimi emosional hallar əmələ gəlir.

Sosiallaşmanı ləngidən daha bir demoqrafik amil yeniyetmənin əlilliyi və xəstəliyidir. Tədqiqatda bu problem iki aspektdə - autizm sindromlu yeniyetmələrə xas olan assosiallaşma vəziyyəti və şikəstliyin yaratdığı çətinliklər nümunəsində nəzəri baxımdan təhlil olunmuşdur.

Kiçik yeniyetmələrlə apardığımız tədqiqat göstərdi ki, demoqrafik amilin neqativ təsiri sosiallaşmanı ləngidərək onların emosional sahəsində, motivasiyasında və koqnitiv fəaliyyətində problemlər yaradır. Valideynlərin də onlara yetərincə tələbkar yanaşmaması kiçik yeniyetmələrin ailədəki sosial rolu barədə anlayışlarının inkişafını ləngidir, onların ailə üzvləri ilə bağlılığında etibarlılıq və əminlik zəifləyir.

Boyük yeniyetmələrdə ailəyə, valideynlərə, ətrafdakı insanlara münasibətin empatik məzmunu onların sosiallaşması baxımından əlverişli deyil. Bu nəticələr onların insanlarla qarşılıqlı münasibətlərində emosional gərginlik yarada biləcək amildir. Bununla yanaşı, böyük yeniyetmələrin özünə münasibəti də qənaətəxş deyil. Onların bir çoxu özünün imkan və xüsusiyyətlərini, bütövlükdə öz varlılğını aşağı qiymətləndirirlər. Bu, yeniyetmələrin sosial adaptasiyası özünü-reallaşdırması üçün maneə yaradır.

Demoqrafik amillərin neqativ təsirlərini özündə daha çox hiss edənlər məhz ambovert (qarışıq) yeniyetmələrdir, çünki sosial situasiyaların neqativliyi, mühitin uyğunsuzluğu səbəbindən özünüdərketmədə, özünüqiymətləndirmədə və özünümüəyyənləşdirmədə yaranmış çətinliklər şəxsiyyət xassələrinin qarışıq dərk edilməsinə səbəb olur.

Yeniyetmələrdə sosiallaşmanın inkişaf etdirilməsi üzrə işin psixoloji xüsusiyyətləri kompleks tədbirlərin həyata keçiril-məsini tələb edir. Həmin tədbirlərdən hər hansı birinin müvafiq qaydada təşkil olunmaması yeniyetmələrin sosiallaşmasında gözlənilən səviyyədə təsir göstərmək imkanında olmur. Yeniyetmələri fəallığa yönəltməklə onların sosiallaşmasını təmin etmək mümkündür.

**Dissertasiya işinin əsas məzmunu** müəllifin nəşr olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:


1. Yeniyetmələrin sosiallaşmasının psixoloji xüsusiy-yətləri . Məqalə. Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. Bakı. 2018. №1 c.66 22639 i.s. səh.235-246 -AAK-ın tövsiyə etdiyi nəşr
2. Demoqrafik amillərin təsiri ilə üzləşmiş yeniyetmələrdə sosiallaşma problemi. Məqalə. Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. Bakı. 2018. №4 c.66 23500 i.s. səh. 238-248 - AAK-ın tövsiyə etdiyi nəşr
3. Yeniyetmələrin sosiallaşmasında özünü identifikasiya probleminə dair. Məqalə. Psixologiya jurnalı. Elmi-praktik jurnal. Bakı. 2018. №2. 19727 i.s. səh.56-63-AAK-ın tövsiyə etdiyi nəşr
4. Программы, реализуемые для преодоления трудностей социализации подростков в учебной среде. Məqalə. Теорія і практика сучасноі психологіі. Украіни. 2020. №2. 22710

i.s. Стр.95-101-Index Copernicus http://www.tpsp-journal.kpu.zp.ua/2-2020

**5.** Историко-теоретические аспекты проблемы социализации подростков статья. Известия Балтийской Государственной Академии рыбопро-мыслового флота. Научный журнал. Психолого—педагогические науки. Калининград. 2021. №2 (56). 28488 i.s. Ст.90-97. РИНЦ https://www.elibrary.ru/item.asp?id=46182571

**6.** Demoqrafik amillərin neqativ təsirləri nəticəsində kiçik yeniyetmələrdə yaranan psixoloji problemlər. Məqalə. Azərbaycan Respublikasının Təhsil İnstitutu. Elmi əsərlər. Bakı. 2022. Cild 89, №3. 27600 i.s. Səh. 86-92. AAK-ın tövsiyə etdiyi nəşr

**7.** Şagirdlərarası əməkdaşlığın səmərəli təşkili demoqrafik amillərin neqativ təsirlərinin aradan qaldırılması yolu kimi. Məqalə. Azərbaycan Dillər Universiteti. Elmi xəbərlər. Bakı. 2023. №2. Səh. 165-173. 15000 i.s.

**8.** Yeniyetmələrin sosiallaşmasında özünüidentifikasiya problemi. Konfrans materialı. GDU. Gənc alimlərin I Beynəlxalq elmi konfransı. Gəncə. 2016. 17-18 oktyabr. II hissə. 9562 i.s. səh. 27-29

**9.** Şagirdlərin sosiallaşmasının bəzi psixoloji xüsusiyyətləri. Konfrans materialı. ADPU. Əməkdar elm xadimi, şöhrət ordenli, professor Əbdül Əlizadənin 85 illik yubileyinə həsr olunmuş "Əbdül Əlizadə: Ənənəvi təhsildən təfəkkür məktəbinə" Respublik elmi-praktik konfransının materialları. Bakı. 6 dekabr 2017. 4808 i.s. səh.246-248

**10.** Yeniyetmələrin sosiallaşmasında demoqrafik amillərin yaratdığı problemlər. Konfrans materialı. BSU. The Great czech educator jan amos komensky: a classic and modern approach to education. International conference. Proqram and Abstracts. Baku. 4-5 april 2019. 4476 i.s. səh.258-261

11. Negative tendencies in the socialization of adolescents as a result of demographic processes Konfrans materialı. International Academic Institute. Book of Abstracst. International Virtual Academic Conference. Education and Social Science Business and Economics 10 june 2020. 19650 i.s. p.37

12. Развитие креативных способностей подростков в период пандемии Covid -19. Konfrans materialı. Теоретични та практични аспекти розвитку науки. Науково-практична конференция. Конференций Молодий вчении. Чернигив. 28-29 травня. 2021. 10264 i.s. Ст.120-122

13. Yeniyetmələrin sosiallaşmasında neqativ meyllər demoqrafik proseslərin nəticəsi kimi. Konfrans materialı. BDU. Azərbaycan Prezidenti cənab İlham Əliyev və milli vətənpərvərliyə həsr olunmuş "Müasir təhsilin məzmununda milli-mənəvi və ümumbəşəri dəyərlər" mövzusunda respublika elmi konfransı. Bakı. 4-5 may 2021. 2899 i.s. səh. 458-460

14. Влияние социальныч сетей на социализацию подростков с отягощающими демографическими факторами. Konfrans materialı. Сборник научных трудов. Система знаний: Образовательные инициативы и развитие творческого потенциала современной науки. Материалы Международных научно-практических мероприятий обшества науки и творчества. Россия. Казань. Октября.2021. 14209 i.s. Ст.120-125

15. «Роль ИКТ в образовательном и воспитании подростков в семье и в школе». Министерство науки и высшегообразования Российской Федерации. Современный ПР: Теория, практика, образование. Материалы XIV Международной научно – практическкой конференции. УНПЦ «Издательство УГНТУ» 28 апреля 2023 года. Ст.366 – 370

16. «Роль социальных сетей в социализации ребенка в семье» Государство будущего: социально - экономического и политико провового развития. Сборник статей VII международной научно-практической конференции. УФА 25 апреля 2024 года. Ст. 113-117

Dissertasiyanın müdafiəsi 16 yanvar 2025-ci il tarixində saat $13^{00}$- da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının bazasında yaradılmış BFD 2.43 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Akademik Zahid Xəlilov küçəsi, 33, e-mail: info@bsu.edu.az

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin (http://bsu.edu.az/) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 13 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.11.2024

Kağızın formatı: 60×84 1/16

Həcm: 43262

Tiraj: 100